# "...Mən bu cahana sığmazam"

## Nəsimi sözünün qüdrəti dünya ölkələrində

Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, böyük şair və mütəfəkkirin 650 illik yubileyi və "Nəsimi ili" Azərbaycanın hüdudlarından kənarda da çoxsaylı tədbirlərlə qeyd edilir.



"Nəsimi ili"nin ölkəmizdən xaricdə ən yaddaqalan hadisələrindən biri Ukraynanın paytaxtı Kiyevdə qüdrətli söz ustadının abidəsinin ucaldılması olacaq. Mayın 24-də açılışı keçirilən heykəlin müəllifi Ukraynanın Xalq rəssamı, tanınmış heykəltaraş həmyerlimiz Seyfəddin Qurbanovdur.

Azərbaycanın Ukraynadakı səfirliyinin sifarişi ilə ucaldılan heykəlin açılış mərasimində Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Kiyev şəhərinin meri Vitali Kliçko, diplomatik korpusun nümayəndələri, soydaşlarımız, şəhər sakinləri iştirak ediblər. Vitali Kliçko bildirib ki, Kiyevdə Azərbaycan xalqının böyük şairinin abidəsinin ucaldılması Ukrayna və Azərbaycan xalqlarının bir-birinə verdiyi dəyərin nəticəsidir. Eldar Əzizov da ölkələrimiz arasında mehriban münasibətlərdən bəhs edərək vurğulayıb ki, Bakıda Taras Şevçenkonun, Kiyevdə ulu öndər Heydər Əliyevin, Müslüm Maqomayev və indi də İmadəddin Nəsiminin heykəlinin ucaldılması iki ölkə arasında dost münasibətlərin bariz nümunəsidir.

***



Avstriyanın paytaxtı Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində Nəsiminin 650 illik yubileyi münasibətilə musiqili-ədəbi gecə və almaniyalı alim Mixael Hessin dahi Azərbaycan şairinə həsr olunmuş məruzə axşamı keçirilib.

Mərkəzin rəhbəri Leyla Qasımova çıxış edərək Nəsimi haqqında məlumat verib.

Musiqili-ədəbi gecədə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin yaradıcı heyəti "Bulmuşam həqqi..." adlı proqramla çıxış edib. Xalq artisti Gülyanaq Məmmədova Nəsiminin qəzəllərini ifa edib. Xalq artisti Mehriban Zəki, gənc aktyorlar Mirsənan Kazımlı və Ziya Ağayev Nəsiminin qəzəl və rübailərini söyləyiblər. Qaval ifaçısı Mahmud Salahın müşayiət etdiyi sənətçilər ifaları ilə tamaşaçılara xoş təəssürat bəxş ediblər.

***

Serbiyadakı səfirliyimizin təşəbbüsü və Belqradda fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə iyunun 18-də Nəsiminin serb dilinə tərcümə edilmiş seçmə şeirlərindən ibarət kitabının təqdimatı, "Nəsimi" filminin serb dilində subtitrlərlə nümayişi olub. İyunun 19-da isə Serbiya Kral Akademiyasının təşkilatçılığı ilə Belqrad Universitetində Nəsiminin 650 illik yubileyi münasibətilə elmi simpozium təşkil olunub. Səfir Eldar Həsənov, Serbiya Kral Akademiyasının üzvü, akademik Sokol Sokoloviç bu cür tədbirlərin ikitərəfli əlaqələrə müsbət təsirini qeyd ediblər.

Simpoziumda serb və azərbaycanlı alimlər məruzələrlə çıxış ediblər. Alimlərə Serbiya Kral Akademiyasının qərarı ilə təsis olunmuş "Nəsimi 650 il" yubiley və "İvo Andriç" medalları təqdim edilib.

***

Bişkek şəhərindəki Manas Universitetində İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Universitetin foyesində Azərbaycan Milli Kitabxanasının fondunda olan Nəsiminin əsərlərindən ibarət kitab sərgisi açılıb. Kitabxananın direktoru Kərim Tahirov, Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı çıxış ediblər. Qırğızıstanın TÜRKSOY-dakı daimi nümayəndəsi Kojageldi Kuluyev Nəsiminin əsərlərinin türk xalqlarının dillərinə tərcümə edilməsinin vacibliyini qeyd edib.

AMEA-nın Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, Manas Universitetinin professorları Layli Ukubayeva, Asılbek Kulmurzayev, türk yazıçı-araşdırmaçı Kenan Çarboğa, qazax şairi Sayat Kamşiger, başqırd şairi Tamara Yuldaşeva Nəsimi yaradıcılığı haqqında söhbət açıblar.

***

Beynəlxalq Türk Akademiyasının təşəbbüsü ilə Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində "Beynəlxalq Avrasiya Kitab Sərgisi 2019" çərçivəsində "Nəsimi ili"nin açılışı olub. Akademiyanın prezidenti, professor Darxan Kıdırali bildirib ki, Nəsimi öz yaradıcılığının miqyası ilə bəşəriyyətin böyük dəyərinə çevrilib. Bunları nəzərə alaraq Beynəlxalq Türk Akademiyası şairin şeirlərini qazax dilində nəşr edib.

Mərasimdə ölkəmizin Qazaxıstandakı səfiri Rəşad Məmmədov, Milli Məclisin deputatı Musa Quliyev, Qazaxıstanın Avrasiya Milli Universitetinin professoru, tərcüməçi, türkoloq Amantay Şarip çıxış ediblər. Beynəlxalq Türk Akademiyası tərəfindən qazax dilində çap olunan "Azərbaycan ədəbiyyatı antologiyası" və Nəsiminin şeirlərindən ibarət "Mən aləmə sığmazam" kitabları təqdim olunub, Azərbaycan, qazax və rus dillərində şairin şeirlərindən parçalar səsləndirilib.




***

Azərbaycanın Belarusdakı səfirliyi tərəfindən Minskdəki "Dostluq evi"ndə Nəsiminin 650 illik yubileyinə həsr olunmuş bədii-musiqili tədbir keçirilib. Belarus Mədəniyyət Nazirliyinin idarə rəisi Viktoriya Ratabılskaya və səfir Lətif Qəndilovun açılış sözlərindən sonra Belarus Milli Elmlər Akademiyası Ədəbiyyatşünaslıq İnstitutunun kiçik elmi işçisi Tatyana Borisyuk və Belarus Dövlət Universitetinin müəllimi Valeriya Leşenko İ.Nəsiminin həyat və yaradıcılığına dair məruzə ilə çıxış ediblər. Tələbələr tərəfindən Nəsiminin şeirlərindən parçalar oxunub, Azərbaycan rəqsləri ifa olunub.

***

"Nəsimi ili" ilə əlaqədar Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) "Məndə sığar iki cahan" adlı poeziya müsabiqəsi elan edib. Müsabiqəyə təqdim olunan əsərlər sonra hər iki dilə tərcümə olunaraq kitab halında çap ediləcək.

Yubiley münasibətilə Nəsiminin "Cananı sevirəm" adlı qəzəllər kitabı özbək dilində çap olunub. AMM-in layihəsi ilə çap olunan kitabı Azərbaycan dilindən şair və tərcüməçi Tahir Qəhhar çevirib. Ön sözün müəllifi AMM-in direktoru Samir Abbasov, kitabın elmi məsləhətçisi Sona Vəliyevadır.

***

Helsinki şəhərində Finlandiyada fəaliyyət göstərən diaspor təşkilatlarının birgə layihəsi olaraq Nəsiminin 650 illiyinə həsr olunmuş konfrans keçirilib. Məlumat verilib ki, Finlandiyada Avropa Ədəbi Tərcüməçilər İttifaqının (SİETL) üzvü Tahirə Cəfərovanın təşəbbüsü və redaktorluğu ilə fin dilində "Gövhəri-laməkan mənəm" adlı Azərbaycan poeziya antologiyası çap edilib. Topluya daxil edilən poetik əsərləri Finlandiyanın tanınmış şairləri Xannu Myakelya, Leyevu Lehto, həmçinin Yukka Malnilen, Timo Malmi və Tahirə Cəfərova tərcümə ediblər.

***

Azərbaycan Dövlət Tərcümə Mərkəzi tərəfindən İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilən rus dilində ərsəyə gətirilmiş kitab Moskvada nəşr olunub. Kitaba daxil edilmiş 200-ə yaxın qəzəl və rübai Nəsimi yaradıcılığını işıqlandıran məqalə, eləcə də əsərlərdə yer alan çətin anlaşılan sözlərə dair izah və şərhlərlə verilib.